BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# NECƏ Kİ HƏYAT VAR, ŞEİR DƏ VARDIR...

**ALMAZ ƏLİQIZI**
***Bakı Dövlət Universiteti***

Müasir Azərbaycan ədəbiyyatına öz dəst-xətti, bənzərsiz üslubu, kövrək duyğulu şeirlərilə daxil olan Hüseyn Arif çağdaş poeziyamızın ən sevilən, oxunan, sözlərinə mahnılar bəstələnən sənətkarlardandır. Zəngin poeziyamızın kəhkəşanında adı B.Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz, Tofiq Bayram kimi sənətkarlarla yanaşı çəkilən Hüseyn Arif ədəbiyyatımız tarixinə milli məfkurəyə söykənən şeir və poemaları ilə daxil olmuşdur. Təsadüfi deyildir ki, müasir Azərbaycan ədəbiyyatşünaslığında onunla bağlı maraqlı fikir və mülahizələr söylənilmiş, həmçinin ayrı-ayrı kitablarına maraqlı rəylər yazılmış, barəsində namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Son illərdə çağdaş dövrümüzün ədəbiyyatının hər cür ideoloji stereotiplərdən uzaq, azad düşüncə, milli məfkurə işığında araşdırılması güman edirik ki, ədəbiyyatımızın, o cümlədən poeziyamızın gələcək inkişafı üçün atılmış möhkəm özüllərdən biri və əsası sayılmalıdır. İdeoloji təsir və basqıdan kənar olan hər bir araşdırma nəinki bir sənətkarın, həmçinin çağdaş ədəbiyyatımızın bir çox maraqlı və qaranlıq məqamlarına işıq salmağa imkan verəcəkdir. Hüseyn Arif yaradıcılığı elə ilk günlərdən diqqəti çəkən olmuş, bu səbəbdən də onunla əlaqədar müxtəlif yazılar yazılmış, ədəbi tənqidin həmişə diqqətində olmuşdur. Maraqlıdır ki, bu yazılar sırasında tanınmış şairlərlə yanaşı, müasir ədəbiyyatşünasların da adları diqqəti cəlb edir. Bu yazıların hər biri bu gözəl və bənzərsiz şairin yaradıcılığının müxtəlif məqamlarına müraciət etməklə onun şair simasını, özünəməxsusluğunu, bənzərsizliyini, dil-üslub xüsusiyyətlərini araşdırmağa səy etmiş, nəticədə çağdaş poeziyamızda Hüseyn Arif yaradıcılığının yerini müəyyənləşdirməyə çalışmışlar.

2007-ci ildə Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrası 2 cildlik Müasir Azərbaycan ədəbiyyatı dərsliyində Hüseyn Arif yaradıcılığına da yer ayırmışdır.

Çağdaş poeziyamızda daha çox lirik şair kimi tanınan Hüseyn Arif yaradıcılığının ən ümdə cəhətlərindən biri onun Azərbaycan şifahi xalq ədəbiyyatına bağlılığı, daha çox təbiət vurğunu olmasıdır. Lakin təbiətə vurğunluq rəngarəng üslubi çalarlar şairin ədəbi mövqeyi, dövrün ədəbi prosesi fonunda daha aydın görünür. Təbiət mövzusu adı altında əslində şairin cəmiyyət, insan, onun düşüncələri, amalı, ictimai-siyasi proseslərə münasibəti, insanı keşməkeşli zaman müddətində düşündürən məsələləri poeziyaya gətirə bilməsi şairi milyonlarla insanın qəlbinə hakim etdi.

Əlbəttə ki, saydığımız təsnifatın şərtiliyini qəbul etməklə onun yaradıcılığında təbiət mövzusunun xüsusi bir önəm daşıdığını qeyd etmək olar.

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım,

Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım (1, s. 49).

Təbiəti, onun bütün gözəlliklərini böyük sevgi və məftunluqla təsvir edən, bu mövzulu şeirlərilə çağdaş poeziyamızda bənzərsiz əsərlər yaradan Hüseyn Arif, həm də təbiətin təsviri fonunda vətənin gözəlliklərini, onun bənzərsizliyini tərənnüm etmiş olur. Bu mövzulu şeirlərinin gözəlliyi və bənzərsizliyindəndir ki, çağdaş poeziyamızda onun bu tipli şeirlərinə bərabər sənət nümunəsi tapmaq mümkün deyildir. Əslində, təbiət doğal və təbiiliyilə şairi daha çox özünə aludə edir, çünki təbiət qoynunda şair daha rahat, daha asudədir. Səbəbi isə təbiətin doğru, təbii, daha dürüst olmasıdır. Bəlkə də cəmiyyətin qeyri-səmimiliyi, müasir həyatın səsli-küylü olması, şairi təbiətin qoynuna çəkir. Maraqlıdır ki, onun təbiətə müraciəti sadəcə təbiətə olan sevgisindən deyil, duyğu və düşüncələrinin daha sərbəst, özünəməxsus ifadə formasıdır. Bu mənada «Gördüm» şeiri şairin hiss və duyğularını ifadə etmək baxımından maraq doğurur. Sanki şair üçün yerlə göy arasında olan məsafə qısalıb, itirilmiş, bir nağıllıq yalanla dolu olan insan ömrü, ayrılıq və hicranla süslənmiş həsrət könüllərin yanğısı onu düşündürür, rahatsız edir.

Göyə baxdım.
Göyün ala gözlərini,
dolan gördüm.

Yerə baxdım,
Çiçəklərin yanağını
solan gördüm.

Çaya baxdım,
O sahildə
bu sahildə
gözü yolda
qalan gördüm (2, s. 140-141).

Bu şeirdə güclü kədər hissi var. Təbiətin təsviri fonunda daha böyük məsələlərin qoyuluşu göz önündədir. Sonuncu misralar ayıq oxucuya daha böyük mətləblərdən xəbər verir. Düşünürük ki, H.Arifi burada daha çox ağrıdan əlli milyonluq millətimizin ayrılıq və hicran həsrətidir. XX-XXI əsr dünyada məhkum millətlərin azadlığa çıxması, imperiyaların dağılması dövrü kimi xarakterizə olunur. Azərbaycan türkləri olaraq biz isə hələ də milli problemlərimizi həll etməmişik. Şair «O sahildə, bu sahildə gözü yolda qalan gördüm» deməklə, 200 ilə yaxın millətimizin parçalanma, ayrılma həsrətini qələmə alır. Bu böyük dərdi, bu böyük milli faciəni bir neçə misra ilə ifadə etməyi bacaran şairin təbiətin təsviri fonunda fikirlərinin dərinliyi onun şeirlərinin ideoloji baxımdan daha mükəmməl olduğundan xəbər verir. Təbiətə insan mənəviyyatına xas olan sifətləri verməklə o həm təbiətin gözəllik və bənzərsizliyini tərənnüm edir, həm də ağrılı-acılı problemləri gündəmə gətirir. Maraqlıdır ki, bəzən onun təbiət mövzusunda yazdığı əsərlərilə vətənpərvərlik mövzusu arasında olan sədd o dərəcədə kövrək olur ki, kiçicik bir mehin əsməsi ilə bu sədd tamamilə yox ola bilir.

Aranı dolaşdım, dağı dolaşdım,
Bu yurddan, o yurda neçə yol açdım.

Qışın çiləsində zirvələr aşdım.
Başımda sevdası Azərbaycanın (1, s. 11).

Hüseyn Arif poeziyasının xarakterik cəhəti ondan ibarətdir ki, şair sözlərilə sanki canlı bir tablo yaradır. Bu şeirləri oxuyan isə özünü Tanrının yaratdığı bənzərsiz gözəlliyin qoynunda hiss edir.

Ağır hücumuna tozun dumanın,
Ürəklər, ciyərlər necə dayansın?
Xəbərdar eyləyin boz səhraları,
Palıdlar oyansın, şamlar oyansın.

Meşələr seyrəlib, sular azalıb,
Duraq təbiətin keşiyində biz.
Tablaya bilərmi bircə an belə,
Balıqlar dənizsiz, quşlar meşəsiz? (1, s. 53).

Doğma torpağımıza, onun təbiətinə, bütün varlığı ilə bağlı olan, canından artıq sevdiyi təbiətin insanların əlilə məhv edildiyini görən şair həyəcan təbili çalır, insanları bu gözəlliyi qorumağa, təbiətə qarşı amansız olan insanları humanizmə səsləyir. Şairin lirik qəhrəmanı bütün bəşəriyyət üçün yaxınlaşan təhlükəni hiss edir.

Nə sirli, sehirli yaranıb həyat,
Könül sözlə dolu, söhbətlə dolu.
Yaxşı ki, bu günü görmədi Qırat,
Yaxşı ki, vaxtında köçdü Koroğlu (2, s. 267).

Hüseyn Arifin bu səpkili şeirlərində təəssüflə yanaşı, dərin bir kədər də var. Şairin lirik qəhrəmanı, qəhrəmanlıq günlərinin keçdiyini, bu gün hər şeyin bayağılaşdığını qeyd edir, bəşəriyyətin sabahı üçün təbiətin mühüm amil olduğunu söyləyir. O gələcək nəsillər üçün, təbiətin əvvəlki halının qorunub saxlanılmasının vacibliyini şərt kimi irəli sürür.

Maraqlıdır ki, Hüseyn Arifi bir şair kimi düşündürən bütün məsələlər təbiətlə əlaqələndirilir.

Professor Tofiq Hüseynoğlu Hüseyn Arifin yaradıcılığından, xüsusilə onun təbiətlə bağlı şeirləri haqqında belə yazır: «Hüseyn Arifin şeirlərində canlandırdığı obrazlar şairin dünyaya baxışını, həyati konsepsiyasını və qənaətlərini, bütövlükdə şair mənliyi və sənətkar şəxsiyyətini ifadə edir. Əsərlərindən doğan fikir budur ki, şair təbiətə qovuşmağa can atır. O, təbiətdən doğruluq və əsillik əxz etmişdir; təbiət onun fikirlərinə genişlik, dərinlik, özünə isə vüqar, əzəmət bəxş etmişdir (3, s. 110)

Bəlkə də Hüseyn Arifi poeziyamızda təbiət vurğunu kimi şərtləndirən amil şairin özünü təbiətdə tapmasından irəli gəlir. Onun digər mövzulu şeirlərindən fərqli olaraq təbiətin təsvir və tərənnümünə həsr olunmuş şeirlərində bir incəlik, zəriflik və H.Arif qələminə məxsus əcaib bir orijinallıq diqqəti çəkir. Məsələn onun «Təbiət düşünür» şeirində olduğu kimi:

Torpağın ətrini fikirləşəndə,
İpək tellərinə, çiçək taxarsan.
Səhərlər yadına güzgü düşəndə,
Maral baxan gölə sən də baxarsan (2, s. 33).

Poeziyamızın ən yaxşı xüsusiyyət və ənənələrini yaşadan, onlara yeni çalarlar qatan H.Arif yaşadığı dövrün ədəbi prosesi ilə ayaqlaşmağa çalışmış, insanları həmişə ucalığa, mənəvi təmizliyə, daxili saflığa, oxucularını əqli yetkinliyə səsləməyi bacarmışdır.

Mənəvi gücü xalqımızın bitib-tükənməyən ucalıq və saflığından alan, bütün varlığı ilə xalq yaradıcılığına bağlı olan şair tərbiyəvi əxlaqi şeirlərilə də həmişə diqqət mərkəzində olmuşdur. Həyata yeni atılan gənclərə, ağıl-kamal sahibi olmayanlara doğru yolu göstərmək bacarığına sahib şair, yeri gəldikcə əsl dostluq, sədaqət, sevgi, vəfa, halal zəhmət, səxavətli olmaq, təvazökarlıq, insani rəftar və sair keyfiyyətlər haqqında da yazmağı bacarmışdır.

Bilir, sovuşduqca illər, fəsillər,
Bir çıraq başacan işıq salmayıb.
Bilir, yer üzündə bu vaxta qədər.
Heç kəs bu dünyanı tutub qalmayıb (1, s. 95).

Ecazkar qələm sahibi bu dörd misralıq şeirlə həyatın mənasını verməyə, bütün yarananların bir gün dünyasını dəyişəcəyini yada salmaqla insanları mənəvi düşkünlükdən, pislik, riyakarlıq, dünya malına aludə olmaq kimi xüsusiyyətlərdən uzaqlaşdırmağa çalışır. Şair poetik deyimində fikirlərin daha inamlı olması üçün maraqlı ifadələr seçir, insanın mənəvi-ruhi aləminə təsir edir, onu düşündürür.

İnsan ömrünə son dərəcə yüksək qiymət verən, Tanrının verdiyi insan ömründən mənalı surətdə bəhrələnməyi tövsiyə edən sənətkar əslində böyük yaradana üz tutaraq ona həm giley-güzarını bildirir, həm də ondan nicat və zaman diləyir.

Tutub qalan olmasaq da dünyanı,
Bir dünyadır ömrümüzün hər anı.
Aman əcəl, yaşayanı, yananı,
Son mənzilə yetirməyə tələsmə (1).

Şairin təbiət, məhəbbət və ictimai mövzuları arasında çox vaxt sədd qoymaq çətinləşir. Onun vətən mövzusunda yazdığı şeirlərdə vətənin müqəddəsliyi, vətən sevgisi qeyd etdiyimiz kimi çox vaxt vətənin gözəllik təsvirilə verildiyindən bəzən bu şeirləri, təbiət mövzusuna, yaxud vətənin tərənnümünə həsr edilmiş şeirlərə ayırmaq olmur. Bu da həqiqətdir ki, Hüseyn Arif poeziyası həmişə vətən məhəbbətinin tərənnümündə özünün orijinallığı, bənzərsizliyi ilə seçilir. Çox vaxt bu ülvi vətənpərvərlik vətənimizin şanlı tarixinə müraciət, onun ər oğullarının tərənnümü ilə müşayiət olunur.

Ocaq çatdım, odu, közü,
Nəfəsimlə alışdırıb
Babək ocaq çatan yerdə.
Qara batdım
Dava günü
Mərd Cavanşir
Dizə qədər qara,
Buza batan yerdə (1, s. 9-10).

Hüseyn Arif vətənimiz Azərbaycanın hər çayını, hər daşını elə tərənnüm edir ki, onun bu vətənə, bu torpağa olan sonsuz məhəbbəti və məftunluğu oxucuya da sirayət edir. Kövrək duyğulu belə şeirlər incə deyimli ifadələrlə süsləndikdə həm oxunaqlı olur, həm də insanın mənəvi-ruhi aləminə təzəlik, təravət və rahatlıq gətirir. Çünki onun şeirlərinin əksəriyyəti insanın saf, təmiz duyğularına, vətən, millət, el-oba sevgisinə, həyatda, cəmiyyətdə əmin-amanlığa köklənmişdir.

Daş kəsməsin çeşmələrin yolunu,
Sel atmasın çiyələyin kolunu.
Qızaranda təbiətin gül donu,
Düşən dolu çəmənzara qıymasın (1, s.125).

Gözəllik, təbiət və məhəbbət şairi bəzən yaşadığı mühitin təzadları qarşısında sarsılır, ümidsizləşir, əyriliyin, yalanın baş alıb getdiyi bir mühit onu sıxır. «Ara vuranları, «ev yıxanları» mənsəb və şöhrət düşkünlərini, riyakarlıq və satqınlığı tənqid edir.

Bir nazir sağında, rəis solunda,
Quruyub qalmadım müqəvvalar tək.
Sadə maşın sürən bir dost yolunda,
Yatmadım, dərələr, düzlər keçərək (1, s. 125).

Əlbəttə, rüşeymləri, tarixi kökləri yüz illərlə əvvəllərə gedib çıxan xeyir-şər məsələsi bütün zamanlarda olduğu kimi bu gün də aktualdır. Hələ dahi Nizamidən gələn bir çox problemlər çağdaş poeziyamızda da daim işlənən, müraciət olunan mövzulara çevrilir. «Mahir bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan» söyləyən dahi şairdən bir neçə yüzilliklərdən sonra, elmimizin, gələcəyimizin naşı, savadsız, ancaq möhkəm arxası olan, mənliyi və şərəfi olmayan insanlara tapşırılması H.Arifi rahatsız edir.

Sadə bir aşıqla ülfət bağladım,
Yüz nağıl eşitdim, yüz duzlu dastan.
Mərifət gözləyib, ağıl ummadım
Elmsiz «Elmlər doktorları»ndan (1, s. 126).

Yarımçıq elm adamındansa şair üçün sadə bir el aşığı ilə ülfət bağlamaq, özündən razı, qudurğan vəzifə adamın məclisində soyuq, ürəkdən gəlməyən bir sağlıq deməkdənsə, sadə bir daşyonanın, halal zəhmətilə güzəran keçirən bir zəhmət adamına salam vermək, sadə bir çobanın gülüşünü görmək, sadə bir kənd adamının evində olmaq, onun halal zəhmətlə qazandığı, ürək açıqlığı, təmənnasız açılan süfrəsindən bir tikə dadmaq şairə qürur verir. Həyatda təmiz, saf qaldığı üçün bu sadə insanlara minnətdarlığını bildirir.

Nə üzüm qaradır, nə dilim qısa,
Çıxsam da alovlar, odlar içindən.
Mərdliyim, saflığım az-çox qalıbsa,
Sadə insanlara minnətdaram mən (3).

Çağdaş poeziyamızın kəhkəşanında parlaq ulduzlardan biri sayılan H.Arif daha çox təbiət və gözəllik şairi kimi tanınsa da cəmiyyətin eybəcərliklərini tənqid edən, güclü satirik qələmə malik şair kimi də sevilir. Həyatı boyu ədalət, doğruluq, təmizlik axtaran şair eybəcərliklərə göz yuma bilməmiş, şəxsi marağını vətən və millətdən üstün tutanlara, haram tikə ilə var-dövlət sahibi olanlara, xüsusilə hüquq-mühafizə orqanlarında çalışanların ədalətsiz hərəkətlərinə qarşı olmuşdur. O, yeri gəldikcə sənət adamlarına, yazarlara, şairlərə də öz münasibətini bildirmişdir. Xalqdan xəbərsiz, xalqdan uzaq olanlara xalq artisti, xalq şairi adlarının verilməsinə qəti etirazını bildirən şair «Xalqsız xalq şairi» şeirində deyir:

Bir həyat şairi var,
Bir də, vaxt şairləri.

Eldən, gündən xəbərsiz,
Saray, taxt şairləri (1, s. 208).

Ədəbiyyatımız tarixində kifayət qədər saray şairləri olub. Lakin onların tarixdə nə adları qalıb, nə də izləri. Əvəzində isə Nizami kimi ömrü boyu saraylardan imtina edən, insanları humanizmə, bəşəri ideyalara sahib çıxmağa səsləyən, Məhəmməd Füzuli kimi heç bir hökmdar qarşısında baş əyməyən, saraylara nifrət edən, yaşadığı dövrün eybəcərliklərini tənqid etməklə kifayətlənməyib, sarkazm səviyyəsinə yüksələn «Salam verdim rüşvət deyildir deyə almadılar» söyləyən şairlər tarixdə qaldı, zamanın bütün sınaqlarından mətanətlə çıxaraq günümüzə qədər gəlib çıxdılar. Mütləq həqiqətdir ki, dünya durduqca, insanlıq var olduqca, bu məğrur insanların adları da dillərdən düşməyəcək, onlar əbədiyaşarlıq qazanacaqlar.

Hüseyn Arif də bütün yaradıcılığı boyu cəmiyyətin eybəcərliklərini tənqid etdi, boğazdan yuxarı nə tərif dedi, nə təqvimlə şeir yazdı. Öz dünyasının, iç dünyasının səsinə qulaq asdı. Bir vicdanı, bir Tanrısı, bir də əxlaqı qarşısında özünü məsul bildi. Şeirlərinin birində dediyi kimi:

Sınadım gücümü daşda, qayada,
Hüseyni zirvələr gətirər yada.
Mən xalqın oğluyam, bircə dünyada,
Xalqını satandan qoruyun məni (1, s. 196).

**QEYDLƏR:**


1. H.Arif. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb mətbəəsi, 2004.
2. Hüseyn Arif. Ayrı düşəli..., Bakı: Gənclik, 1983.
3. Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası. Bakı, Azərnəşr, 2000.


**ПОКА ЕСТЬ ЖИЗНЬ, ЕСТЬ И СТИХИ...**


**АЛМАЗ АЛИГЫЗЫ**


**РЕЗЮМЕ**


В статье «Пока есть жизнь, есть и стихи» говорится о лирике Г.Арифа, о его стихах, посвященных природе. Привлечены к анализу также и стихи автора на другие темы.

В статье уделено внимание суждениям и мыслям исследователей, занимающихся изучением творчества Г.Арифа.

Автор особо отмечает важную роль в лирике Г.Арифа заимствованных из фольклора ашугской поэзии особенностей.


**WHILE THERE IS LIFE THERE ARE POEMS...**


**ALMAZ ALIQIZI**


**SUMMARY**


In the paper "While there is life there are poems" it is told about Q.Arif's lyrics, his poems devoted to the nature. The other poems of the author on the other topics are attracted to the analysis.

In the paper a special attention is paid to the conclusions and thoughts of the investigators studying Q.Arif's creativity.

The author particularly marks an important role of features in Q.Arif's borrowed from folklore ashug poetry.